*İdman sağlamlıq və gözəllikdir. Bəlkə, buna görə, "Sağlam bədəndə sağlam ruh olar" deyimi heç də təsadüfi deyil. Bədən tərbiyəsi və idman ümumi tərbiyənin bir hissəsi, cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissəsi, insanların sağlamlığını möhkəmlətməyə, fiziki bacarığını inkişaf etdirməyə yönəldilmiş ictimai fəaliyyət sahəsidir. İdman təkcə idmançılar arasında deyil, həm də xalqlar arasında dostluq münasibətlərinin yaranması və möhkəmlənməsində də mühüm rol oynayır. Sovetlər dönəmində Azərbaycanın müttəfiq respublikalar ilə idman əlaqələri xeyli genişlənmiş, idmanın bütün sahələrində ustalığın nümayişi və təcrübənin bölüşdürülməsi üçün əlverişli imkanlar, doğma, qardaşlıq münasibətləri olmuşdur.*

# Azərbaycanda idmanın inkişaf tarixi

## VIII yazı

*(əvvəli qəzetimizin 27-ci sayında)*



1974-cü ilin mart - aprel aylarında Özbəkistanın Fərqanə şəhərində məktəbli oğlanlar arasında həndbol üzrə SSRİ birinciliyinin ilkin yarışları keçirilmişdi. Bu yarışlarda iştirak edən yığma komandamız yarımqrupda Türkmənistan (26:19) və Tacikistan (29:18) həndbolçularına qalib gəlmişdilər. Təmsilçilərimiz Özbəkistan məktəbliləri ilə görüşdə isə iki top fərqi ilə uduzmuşdular - 27:29. Komandamız yarımqrupda ikinci yeri tutaraq, noyabr ayında təşkil olunacaq final mərhələsinə vəsiqə əldə etmişdilər.

İyun ayının əvvəlində Alma-Atada boks üzrə Ümumittifaq yarışları keçirilmişdi. Ev sahibləri ilə yanaşı, Qırğızıstan, Azərbaycan və RSFSR-i təmsil edən güclü idmançılar da mübarizəyə qoşulmuşdular.

Qazaxıstan yığma komandasının üzvü, gənclər arasında SSRİ və Avropa çempionatlarının mükafatçısı L.Tlebuayevlə M.F.Axundov adına Azərbaycan Rus dili Ədəbiyyatı Pedaqoji İnstitutunun ikinci kurs tələbəsi Niyazi Ağayevin final qarşılaşması maraqla qarşılanmışdı. Zəngin döyüş təcrübəsinə malik olan L.Tlebuayev çox çətinliklə də olsa, bakılı rəqibinə qalib gəlib, Qazaxıstan LKGİ MK-nın mükafatına sahib olmuşdu. Məşqçi S.Məlikovun yetirməsi olan Niyazi Ağayev ikinci yerlə kifayətlənmişdi.

İyunun 7-9-da Bakıdakı Respublika stadionunda Azərbaycan SSR Nazirlər Sovetinin mükafatı uğrunda sərbəst güləş üzrə ümumittifaq turniri keçirilmişdi. Turnirdə Azərbaycan, Türkmənistan, Özbəkistan, Tacikistan, Litva, Belarus, Ermənistan və RSFSR-dən 109 idmançı öz bacarığını nümayiş etdirmişdi. Həmin güləşçilər arasında 1 beynəlxalq dərəcəli idmançı, 13 SSRİ idman ustası, 80 SSRİ idman ustalığına namizəd və 15 birinci dərəcəli idmançı turnirə qoşulmuşdu. Yarışda Azərbaycan idmançılarından K.Cəfərov (48 kq), N.Quliyev (52 kq), O.Hüseynov (68 kq), F.Ağasiyev (74 kq), T.İbrahimov (82 kq), R.Qatmayev (+100 kq) birinci yerə layiq görülmüşdülər. İ.Məmmədov (52 kq), S.Abramov (57 kq), A.Qurbanov (68 kq), R.Həsənov (74 kq), M.Qumbadze (90 kq çəki) ikinci yeri tutmuşdular. S.Hüseynov (48 kq), R.Davudov (52 kq), M.Musayev (68 kq), A.Avanesov (74 kq) və M.Mərdanov (90 kq çəki) yarışı üçüncü yerdə başa vurmuşdular. Sərbəst güləş üzrə keçirilən yarışlar da gərgin mübarizə şəraitində keçmişdi. Mərkəzi Asiya respublikalarından gəlmiş idmançılar da çıxış etdikləri çəki dərəcələrində mükafatçılar sırasında yer almışdılar. Türkmənistanlı güləşçilərdən R.Rüstəmov (90 kq) birinci, İ.Yoldaşov (48 kq) ikinci, R.Qubadulin (82 kq) isə üçüncü yeri tutmuşdular. Özbəkistan təmsilçisi E.Fatikov (82 kq) yarışı ikinci yerdə başa vurmuşdu.

İyunun 19-21-də həmin məkanda keçirilən Azərbaycan SSR Nazirlər Sovetinin mükafatı uğrunda klassik güləş üzrə keçirilən Ümumittifaq turniri də Azərbaycan idmançıları üçün yaddaqalan olmuşdu. Belə ki, R.Yaqubbəyov (48 kq), A.Aslanov (52 kq), R.Qəmbərov (57 kq), T.Əliyev (62 kq) və N.Paşayev (74 kq) öz çəki dərəcələrində bütün rəqiblərindən üstün olmuşdular. V.Qasımov (48 kq), M.İbrahimov (68 kq) və N.Qəhrəmanov (90 kq) ikinci yerlə kifayətlənmişdilər. N.Məmmədov (52 kq), M.Mehrəliyev (57 kq), R.Əliyev (62 kq), M.Bayramov (68 kq), V.Şaropatiy (74 kq), Ç.Quliyev (100 kq) və F.Paşayev (+100 kq) üçüncü yerdə qərarlaşmışdılar. Klassik güləş üzrə yarışda tacikistanlı A.Salpaqarov (100 kq) birinci yeri tutmuşdu. Türkmənistanlı güləşçilər R.İbrahimov (57 kq), B.Kotkovski (100 kq) bu yarışı ikinci və V.Əzimov (48 kq) üçüncü yerdə tamamlamışdı.

XX əsrin 70-ci illərində Azərbaycanın partiya, Sovet, həmkarlar ittifaqı, komsomol, təsərrüfat və bədən tərbiyəsi təşkilatları idman ictimaiyyəti bədən tərbiyəsi hərəkatının əsil kütləvi hərəkata çevrilməsi üçün böyük fəallıq göstərirdilər. Respublikanın idman şöhrətini artırmaq və bədən tərbiyəsi - idman işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün əllərindən gələni əsirgəmirdilər.

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı naminə Azərbaycan partiya təşkilatı fəallarının yığıncağı 1974-cü il 21 iyun tarixində "SOV. İKP XXIV qurultayının qərarları ilə əlaqədar olaraq respublikada bədən tərbiyəsini və idmanı daha da inkişaf etdirmək tədbirləri haqqında" qətnamə qəbul etmişdi. Qətnamədə müsbət nailiyyət kimi göstərilirdi: "İndi Azərbaycan bədən tərbiyəçiləri sıralarında təqribən 818 min nəfər vardır. Son üç il ərzində bədən tərbiyəçilərinin sayı 114 min nəfər artmış, ƏMH yeni kompleksinin 475 min nişançısı, 500 mindən artıq dərəcəli idmançı, 297 SSRİ idman ustası, 10 beynəlxalq dərəcəli usta hazırlanmışdır."

Qətnamədə həmçinin idmanın kütləviləşməsinə və genişlənməsinə mane olan nöqsanlar da ciddi tənqid edilmişdi. Qeyd olunmuşdu ki, "Bədən tərbiyəsinin və idmanın inkişafında respublikanın uzun müddət geri qalmasının əsas səbəblərindən biri Respublika İdman Komitəsinin uzun illər ərzində yarıtmaz işləməsindən ibarətdir. Bu komitə böyük hüquqları olan və yüksək məsuliyyət daşıyan dövlət aparatı səviyyəsinə yüksələ bilməmişdi". Məhz həmin məsuliyyətsiz münasibət nəticəsində idman işinin səviyyəsi bədən tərbiyəsinin və idmanın kütləvi inkişafı üçün respublikanın malik olduğu böyük imkanlara əsla uyğun gəlmirdi. Partiya təşkilatı fəalları yığıncağının qətnaməsində bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının son dərəcə zəif olmasından bəhs edərkən - "İdman qurğuları ilə təchiz olunmaq cəhətdən Azərbaycan ölkədə axırıncı yerlərdən birini tutur" - ifadəsi yer almışdı. Respublikamızda cəmi 26 stadion, 679 idman salonu, 10 üzgüçülük hovuzu, 5 mindən çox idman meydançası və 2500 futbol meydançası var idi. İdman qurğularının mövcud şəbəkəsi isə beynəlxalq standartlara uyğun gəlmirdi.

Qətnamədə qadınların bədən tərbiyəsi və idman məşğələlərinə geniş cəlb edilməsinə daim qayğı göstərilməsi də öz əksini tapmışdı. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunun, Bakı Bədən Tərbiyəsi Texnikumumunun işinin keyfiyyətcə yeni səviyyəyə qaldırılması, şagirdlərin və tələbələrin bədən tərbiyəsi işinin təşkilinin yaxşılaşdırılması, bədən tərbiyəsi məşğələlərinin keyfiyyətinin yüksəldilməsi də vacib hesab olunurdu. Uşaq-gənclər idman məktəblərinin işinə xüsusi diqqət yetirilməsi, stadionlar, üzgüçülük hovuzları, kompleks idman meydançaları, atıcılıq tirləri və digər idman qurğuları tikintisi işlərinin genişləndirilməsi də diqqətdə idi. Bütün bu işlərin həyata keçirilməsində qəzet, jurnal, televiziya, radio və kino müəssisələri vasitəsilə idman işinin təbliğinin gücləndirilməsi məsələləri qətnamədə də öz əksini tapmışdı.



1974-cü ilin avqustunda Əndicanda birinci dəstə komandaları arasında ot üzərində hokkey üzrə SSRİ çempionatının ikinci dövrəsi başa çatmışdı. Yarışlarda iştirak etmiş Azərbaycan hokkeyçiləri dördüncü yeri tutmaqla idman ustası normasını yerinə yetirmişdilər.

Respublikamızda idmanın inkişaf etdirilməsi istiqamətində Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1974-cü ildə geniş qərar qəbul etmişdi. Həmin qərarda Azərbaycanda bədən tərbiyəsini və idmanı daha da inkişaf etdirmək sahəsində partiya, sovet, həmkarlar ittifaqı, komsomol, təsərrüfat və idman orqanlarının konkret vəzifələri müəyyən edilmişdi.

Qərarda tələb olunurdu: "Azərbaycan SSR Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman Komitəsi AHİŞ ilə, nazirliklər və baş idarələr ilə birlikdə respublikanın bədən tərbiyəsi və idman komitələrinin, könüllü idman cəmiyyətlərinin və idman təşkilatlarının təşkilatca möhkəmləndirilməsi üçün tədbirlər görməli, kadrlarla aparılan işin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməli, onların iş ixtisasını yüksəltməli, bədən tərbiyəsi kollektivlərinin fəaliyyəti üzərində nəzarəti gücləndirməli, yerlərdə kütləvi idman işinin vəziyyəti üçün rəhbər işçilərin məsuliyyətini və onlara qarşı tələbkarlığı artırmalıları". Həmçinin qərarda Azərbaycanda idmanın inkişafı üçün hansı vacib addımların atılması da qeyd edilirdi. Göstərilirdi ki, AHİŞ və Azərbaycan SSR Maarif Nazirliyi ilə birlikdə 1974-cü il sentyabrın 1-dən uşaq və gənclər idman məktəblərində və yüksək idman ustalığı məktəblərində müasir elmi-metodik tələblər və tövsiyələr nəzərə alınmaqla təlim-məşq məşğələlərinin həcmi xeyli artırılsın; Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun fəaliyyətini kökündən yaxşılaşdırmaq üçün tədbirlər görülsün; məşqçi və müəllim kadrlarının ixtisasını artırmaq məqsədi ilə institutun yanında 50 nəfər müdavimi olan daimi respublika aylıq kursları təşkil edilsin; 1975-ci ildə futbol, atletika, idman oyunları üzrə respublika yüksək idman ustalığı məktəbləri, 1976-1980-ci illər ərzində isə şəhər və rayon bədən tərbiyəsi və idman komitələri yanında 14 idman məktəbi açılsın; 1975-ci ildən başlayaraq ildə 4 dəfə olmaqla Azərbaycan və rus dillərində üç çap vərəqi həcmində idmana dair informasiya materialları məcmuəsi nəşr edilsin; idman obyektləri tikintisi həcminin artması ilə əlaqədar olaraq respublika Bədən Tərbiyəsi və İdman Komitəsində əsaslı tikinti şöbəsi yaradılsın; Bədən Tərbiyəsi və İdman Komitəsi ilə birlikdə 1976-1980-ci illərdə həmkarlar ittifaqlarının vəsaiti hesabına idman qurğuları tikintisinə dair təkliflər hazırlansın və Respublika Dövlət Plan Komitəsinə təqdim etsin. 1975-1976-cı illərdə həmkarlar ittifaqlarının üzgüçülük hovuzu, stadionu və idman meydançaları kompleksi olan təlim-kurs bazasının ikinci növbəsinin tikilməsi məsələsini həll etsin; Azərbaycan SSR Maarif Nazirliyi məktəblərdə və məktəbəqədər uşaq tərbiyə ocaqlarında fiziki tərbiyənin təşkilinin yaxşılaşdırılmasını təmin etsin, bədən tərbiyəsi məşğələlərinin keyfiyyətini yüksəltmək üçün təsirli tədbirlər görsün; 1975-1976-cı illərdə respublikanın 20 şəhər və rayon xalq maarif şöbəsinin metodik kabinetlərində fiziki tərbiyə üzrə metodist vəzifələri tətbiq edilsin; uşaq və gənclər idman məktəblərinin fəaliyyəti gücləndirilsin, onların maddi bazası möhkəmləndirilsin, məşqçi müəllim heyətinin tərkibi keyfiyyətcə yaxşılaşdırılsın, uşaq və gənclər idman məktəblərində təlim-tərbiyə prosesinin səviyyəsi yüksəldilsin; elmi-tədqiqat pedaqogika institutu yanında fiziki tərbiyə və ibtidai hərbi hazırlıq bölməsinin yaradılması məsələsi həll edilsin. "Azərbaycan məktəbi" jurnalına əlavə şəklində "Məktəbdə bədən tərbiyəsi" bülleteninin buraxılışı təşkil edilsin; Azərbaycan SSR Bədən Tərbiyəsi və İdman Komitəsi ilə birlikdə respublikanın şəhər və rayonlarında idman üzrə ixtisaslaşma və gimnastika, atletika, üzgüçülük, avarçəkmə, qılıncoynatma və idmanın digər növləri üzrə ehtiyat qüvvələr hazırlamaq üçün müddəti uzadılmış siniflərin təşkili məsələsi nəzərdən keçirilib həll edilsin və s. Göründüyü kimi, idmanın geniş inkişafı naminə bütün diqqət bu istiqamətə yönləndirilmiş, nöqsanların aradan qaldırılması yolu ilə müsbət dəyişikliklərə nail olmanın əsas istiqamətləri göstərilmişdi. İdman təşkilatlarının işində ciddi dönüş edilmiş, kadrların məsuliyyət hissi gücləndirilmiş və maddi-texniki bazanın möhkəmləndirilməsi idmanın kütləviləşməsinə təkan vermişdir.

*(ardı var)*

***Əzizağa Ələkbərli,***
***Azərbaycan MEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***